

*Mustafa Çəmənli*

# NƏŞRİYYATLARDA KEÇƏN ÖMRÜM

**(Xatirələr)**

**(əvvəli ötən şənbə sayımızda)**

**Bir müddət sonra bu vəzifəyə şair Məmməd İsmayıl təyin olundu. Məmməd İsmayıl "Yazıçı" nəşriyyatına "Azərbaycanfilm" kinostudiyasından gəlmişdi. Bədii ədəbiyyat şöbəsinə Mustafa İsgəndərzadə, ədəbiyyatşünaslıq, tənqid və publisistika şöbəsinə Zəkiyyə Qiyasbəyli, bədii tərcümə redaksiyasına Vilayət Rüstəmzadə, incəsənət şöbəsinə Sabir Rüstəmxanlı, korrektura şöbəsinə Mahnur Muradova, bədii tərtibat şöbəsinə Fədlun Əfəndiyev rəhbərlik edirdi.**

Korrektura şöbəsinin müdiri Mahnur Muradova çox təcrübəli korrektor idi. Adamla söhbət edə-edə qarşısındakı mətindəki səhvi dərhal görür və xətt çəkərək səhifənin kənarlarında düzəlişlər edirdi. Mən bütöv bir səhifəni az qala bir baxışla oxumaq qabiliyyətini bir də yazıçı Cəmil Əlibəyovda görmüşdüm. Bu cür müsbət keyfiyyətlər uzun illərin təcrübəsinin nəticəsiydi.

Nəşriyyatda işlədiyim ilk çağlar idi. Bir gün korrektura şöbəsinin müdiri yazıçı Ənvər Yusifoğlunun "Düşmənimin düşməni" romanının tikilmiş blokunu mənə verdi ki, kontrol oxuyum. Roman on beş min tirajla çap olunmuşdu, sadəcə olaraq üz qabığına yerləşdirilməmişdi. Əsəri oxuyanda gözdən qaçmış qırxa qədər orfoqrafik səhv tapdım. Tapdığım səhvin biri o zaman üçün bağışlanmazdı. Romanda təxminən belə bir cümlə vardı ki, qardaşlar dava başlayana qədər çaylaqda işləyirdilər. İşləyirdilər sözündə "l" hərfi düşmüşdü.

Mən düzəlişlərimi şöbə müdirinə, o da direktora vermişdi. Hətta düzəlişləri kitabın başqa blokuna da köçürtdürüb Mətbuat Komitəsinə göndərmişdilər. O zaman mən adi hesab etdiyim bu işə belə ciddi yanaşılacağını əvvəlcədən bilməmişdim. Sonda belə qərara gəlindi ki, "işəyirdilər" sözünün "ə" hərfi qaralansın ki, oxucu oxuya bilməsin. Beləcə on beş min nüsxə kitabda nəşriyyatın və "Qızıl Şərq" mətbəəsinin kollektivi "düzəliş" etmişdi. Bu hadisə mənim yadıma jurnalistika fakültəsində oxuduğum dövrdə tələbələr arasında danışılan bir əhvalatı saldı. Söyləyirdilər ki, Məmməd Səid Ordubadi hansısa qəzetin redaktoru imiş. Qəzetdə bir tikiş fabrikinin işindən söhbət gedirmiş. Diqqətsizlik üzündən "tikiş" sözü təhrif olunur. Neçə min tirajla çap olunmuş qəzeti nə köşklərdən, nə də abunəçilərdən geri almaq mümkün olası iş deyildi. Belə halda ən yaxşısı susmaq olsa da, redaksiya qaş qayırdığı yerdə, vurub göz də çıxarmışdı. Sabahkı nömrədə düzəliş vermişdi ki, bəs, hörmətli oxucular, dünən qəzetimizdə "tikiş" əvəzinə filan söz gedib, xahiş edirik onu bu cür oxuyun. Beləliklə yanlış, həm də dodaq qaçıran söz daha da tirajlanmışdı.

Bunları yazmaqda məqsədim bəzən bir sözün, hərifin, vergülün necə bir yanlışlığa gətirib çıxartdığını göstərməkdir. Kitab uzunömürlüdür, müasirlərimizin gələcək nəsillərə ərməğanıdır. Yanlış sözlər, düzgün olmayan fikirlər, mühakimələr bumeranq kimi qayıdıb müəllifə, naşirə, bəzən isə millətə dəyir. Böyük Məhəmməd Füzuli yazırdı ki:

Söz mənadan asılıdır, məna sözdən hər zaman,
Bir-birindən asılıdır necə ki, cismilə can.

Buna görə nəşriyyatlarda redaktə və korrekturaya çox dəyər verilirdi. Bu şərəfli və ağır işdə hər adam sona qədər duruş gətirə bilməz. Ancaq kitabı, kitabçılığı sevən, saatlarla oturmağı, gözləri qıyılana qədər əlyazmaları oxumağı bacaranlar, müəlliflərlə işləməyə hövsələsi olanlar nəşriyyatlarda şərəflə qocala bilərlər.

***

1979-cu ildə bizim sevimli baş redaktorumuz ağır xəstələndi - xərçəngə mübtəla oldu. Adam inana bilmirdi ki, xəstəlik az bir vaxtda ucaboylu, sağlam bədənli, gözəl vücudlu, qartal baxışlı baş redaktorumuzu - Əliağa Kürçaylını sınıxdırıb haldan salar. İlk vaxtlar xəstəlik hələ onu yatağa sala bilməmişdi. Bir gün işin axırına yaxın daxili telefon zəng çaldı. Götürdüm:

- Eşidirəm, Əliağa müəllim.
- Nəşriyyatda kuryerlərdən kim var?
- Heç kəs yoxdu, Əliağa müəllim, nə lazımdır?
- Yazıçılar İttifaqına kitab göndərəcəkdim.
- Mən apararam, Əliağa müəllim, - deyib tez dördüncü mərtəbəyə düşüb onun otağına getdim. Bilirdim ki, onun "Bütövlük" kitabını Dövlət Mükafatına təqdim ediblər.

Əliağa müəllim iri zərfə qoyulmuş "Bütövlük" kitabını mənə verdi və "sənə əziyyət verirəm" deməyi də unutmadı.

- Nə əziyyət, Əliağa müəllim, çox xoşdu, - dedim, - inşallah Dövlət mükafatı da alacaqsınız!

Heç nə demədi. Mehriban baxışları üzümə dikildi. Bu sətirləri yazan zaman onun mənə zillənmiş baxışlarını indi də hiss edirəm. Onun mənalı və kədərli baxışları əcəlin lap yaxında olduğundan soraq verirdi. O anda belə istedadlı, sağlam bir şairin qəfil ağır xəstəliyə düçar olmağına təəssüflənirdim. Əlbəttə, Əliağa müəllim ürəyindən nələr keçdiyindən xəbərsiz idi. Yəqin ki, yaddaşımda müğənni Flora Kərimovanın ifasında səslənən mahnısından da! Axı bəstəkar Emin Sabitoğlunun "Belə ola həmişə" mahnısının mətni ona aid idi.

**Pəncərəmə uzanan**
**Yaşıl-yaşıl əldimi?**
**Yarpaqlar ilk baharın**
**Salamına gəldimi?**
**Seyr elə bu lövhəni,**
**Doğurdan gözəldimi?**
**Dayanmışıq səninlə**
**Qoşa, üzü günəşə,**
**Belə ola həmişə!**

Nəsə, Əliağa müəllimin kitabını aparıb Yazıçılar İttifaqına verdim. Bir müddətdən sonra Əliağa müəllim işə çıxmadı. Yəqin ki, yaddaşımızda əvvəlki görkəmində qalmaq üçün işə gəlmədi daha. O gündən otağına nə girən oldu, nə də çıxan. 1980-ci il fevralın 11-də Əliağa müəllimin vəfatı xəbərini eşitdik. Ancaq, necə deyərlər, bu acı xəbərin sazağı ötüb keçməmiş onun sevimli qızı Ülkərin özünə qəsd etdiyi xəbərini eşitdik. Bu çox sarsıdıcı bir xəbər idi. Ülkər özünü dənizə atmışdı. Bu özünəqıyma ataya olan övlad məhəbbətinin son həddiydi. Ülkər xanım istedadlı bir gənc idi. Ədəbi yaradıcılıqla məşğul olurdu. Dövri mətbuatda hekayələri çap olunurdu. Heyf ki, ömrü yarıda qırıldı.

***

Əliağa Kürçaylının dəfnindən bir müddət sonra incəsənət redaksiyasının müdiri Sabir Rüstəmxanlı "Yazıçı" nəşriyyatına baş redaktor təyin olundu. Sabir Rüstəmxanlı o zaman artıq istedadlı şair və publisist kimi tanınırdı. "Yazıçı"ya "Ədəbiyyat və incəsənət" qəzetindən gəlmişdi. Lenin komsomolu mükafatı laureatı, filologiya elmləri namizədiydi. Ən əsası, həssas, səmimi, qətiyyətli, qərəzsiz yoldaş idi. Adətən bu cür xasiyyətli adamlarla işləmək çox asan olur. Mən uzun illər onunla bir



yerdə işlədim, onda kimsəyə qarşı ədəbi qısqanclıq görmədim.

Sabir Rüstəmxanlı baş redaktor olandan bir qədər sonra nəşriyyatda struktur dəyişiklikləri oldu. Baş redaktorun müavinləri vəzifəsi ixtisar olundu, İncəsənət redaksiyası "İşıq" nəşriyyatının tabeliyinə verildi. İncəsənət şöbəsi əvəzinə klassik ədəbiyyat və folklor şöbəsi yaradıldı və ədəbiyyatşünaslıq, tənqid və publisistika redaksiyasında redaktor işləyən İsmayıl Vəliyev bu redaksiyaya müdir təyin olundu. Çox keçmədən məni də bu redaksiyaya redaktor keçirdilər.

İsmayıl Vəliyevlə də işləmək çox asan idi. Onu istedadlı, zəhmətkeş, savadlı bir gənc kimi hələ jurnalistika fakültəsində oxuduğu çağdan tanıyırdım. Bir müddət onunla yataqxanada da qalmışdıq. Doğrusu, yarım saat da olsa vaxt tapıb gündə yaradıcılıqla məşğul olmaq vərdişini də onun sayəsində qazanmışdım. Vaxtını boş-boş işlərə sərf edənlərdən deyildi. Daim öz üzərində çalışardı. Şeirlər, uşaqlar üçün hekayələr, məqalə və oçerklər yazırdı. Dissertant idi. "Ədəbi portret: onun funksiyası və tipologiyası" adlı elmi iş üzərində işləyirdi. Nəşriyyat işini yaxşı bilən İsmayıl Vəliyevin sonralar "Redaktənin əsasları" adlı dərslik yazması heç də təsadüfi deyildi.

***

1980-ci ildə indiki Yasamal rayonunda birinci katib vəzifəsində işləyən Nazim Sadiq oğlu İbrahimov Azərbaycan Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti Komitəsinə sədr təyin edildi. Düzü, bu təyinat nəşriyyat sistemində, ədəbiyyat və mətbuat aləmində, küncdə-bucaqda heç də birmənalı qarşılanmadı, hətta Yazıçılar İttifaqının 1981-ci il 12-13 iyun ayında keçmiş Dzerjinski klubunda keçirilən 7-ci qurultayında xitabət kürsüsündə bu təyinat məsələsini qabardanlar da oldu. Lakin çox keçmədi Nazim İbrahimov özünün fitri qabiliyyəti, böyük təşkilatçılıq bacarığı ilə sübut etdi ki, Mətbuat Komitəsinin sədri kimi heç də təsadüfi adam deyil. Əsas məsələ odur ki, qolunu çirməyib can-dildən işləyəsən. Nazim İbrahimov Mətbuat Komitəsinə sədr təyinatından bir müddət sonra kollektivlə görüşmək üçün bizim "Yazıçı" nəşriyyatına da gəlmişdi. Biz hamımız dördüncü mərtəbədə direktorun otağına yığışmışdıq. Sədrimiz çox yaraşıqlı, qədd-qamətli bir kişiydi. Yer darısqal olduğundan çoxumuz ayaq üstəydik, bəziləri isə hətta içəri keçə bilməyib, gedişatı açıq qapının kandarından izləyirdi. Hansısa bayram ərəfəsi olduğu üçün kollektivimizin bəzi əməkdaşları, o cümlədən mənim də əməyim qiymətləndirilmişdi. Nazim müəllim mənə Mətbuat Komitəsinin fəxri fərmanını təqdim edəndə nə üçünsə: - İnşallah, əlim yüngül olar, - dedi. Onun bu sözünü alqışladılar. İclasdan sonra yoldaşlarım yarıciddi, yarızarafat dedilər ki, deyəsən, səni sədrə tapşırıblar, yəqin irəli çəkəcəklər.

Nazim İbrahimov Mətbuat Komitəsinin sədri işlədiyi müddətdə (1980-1989) kifayət qədər unudulmaz işlər gördü. O, ilk növbədə altıncı mikrorayonda komitənin tabeliyində olan işçilər üçün doqquzmərtəbəli bina, müasir tipli yataqxana, uşaq bağçası tikdirdi. Bununla da bir çox adamı, o cümlədən məni də yataqxana küncündən, kirakeşlikdən qurtardı. İnsan üçün isti evdən gözəl nə var ki Məncə, evin varsa, hər şeyin var. Əlbəttə, bu sözlərin gözü doymayanlara aidiyyəti yoxdur. Məhz Nazim İbrahimovun sədrliyi dövründə "Gənclik" nəşriyyatında 50 cildlik Dünya Uşaq Ədəbiyyatı Kitabxanası, "Yazıçı" nəşriyyatında 100 cildlik Dünya Ədəbiyyatı Kitabxanası, 12 cildlik Azərbaycan Ədəbiyyatı İnciləri seriyalarından kitablar, Nizami Gəncəvinin "Xəmsə"si, L.N.Tolstoyun on dörd cildliyi nəşr olunmağa başladı. Nazim müəllim "Azərbaycan" nəşriyyatının Baş direktoru olduğu illərdə "Bakı", "Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır", "Zərifə Əliyeva", "Bəxtiyar Vahabzadə", "Üzeyir Hacıbəyov ensiklopediyası" (1996) kimi dəyərli albom-kitablarının tərtibçisi, yazılmasının və çap olunmasının memarı oldu. Mənim üçün çox xoşdur ki, "Üzeyir Hacıbəyov ensiklopediyası" kitabının çoxsaylı müəlliflərindən biri də mənəm. N.İbrahimov həm də Vasif Adıgözəlovun "Natəvan" operasının libretto müəllifidir.

Bu ərəfədə nəşriyyata tanınmış simalardan da işə götürülənlər vardı. Seyfəddin Dağlı, Vaqif Səmədoğlu, Ağacavad Əlizadə, Hamid Qasımzadə, Məmməd İsmayıl, Ağasəfa Yəhyayev, Oqtay Salamzadə, Mehdi Mirkişiyev və başqaları müxtəlif vəzifələrə işə götürülmüşdülər. Seyfəddin Dağlı ilə Vaqif Səmədoğlu mənimlə bir redaksiyada çalışırdılar. Bu adamlar dünyagörmüş, həyat təcrübəsi olan şəxslər idi. Onların adi məişət söhbətləri də maraqlıydı.

**(ardı gələn şənbə sayımızda)**